# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

25 iyul 2019-cu il
Cümə axşamı

№ 28 (3443)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# XV AVROPA GƏNCLƏR YAY OLİMPİYA FESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

## *AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA MƏRASİMDƏ İŞTİRAK EDİBLƏR*

Son illərdə ardıcıl bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə evsahibliyi edən Bakı iyulun 21-də yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib. Ölkəmizin paytaxtı "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edir.

Festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli açılış mərasimində Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, eləcə də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, növbəti Avropa Gənclər Yay Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın Baş Nazirinin müavini Riçard Rasi və Avropa Olimpiya Komitələrinin rəhbərliyi ilə görüşüblər.



Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.







Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərəcək.

Bakı vaxtı ilə saat 20:00-da XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi başlayıb.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himninin sədaları altında Milli Qvardiyanın əsgərləri dövlət bayrağını təntənəli şəkildə meydana gətirərək ucaldıblar.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və "Baku Crystal Hall"a toplaşmış tamaşaçılar idmançılarımızı hərarətlə salamlayıblar.

Atletlərin paradından sonra festivala evsahibliyi edən Azərbaycan haqqında film nümayiş etdirilib. Filmdə ölkəmizin tarixi, mədəniyyəti, təbiəti, adət-ənənələri, eləcə də paytaxt Bakının görməli yerləri haqqında kadrlar nümayiş olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XV Avropa Gənclər Yay Olimpiya Festivalını açıq elan edib.

Sonra Beynəlxalq Olimpiya Komitəsinin bayrağı arenaya gətirilib. Bayrağı Azərbaycanın tanınmış idmançıları, Olimpiya çempionları Elnur Məmmədli (cüdo), Zemfira Meftaxetdinova (atıcılıq), Nazim Hüseynov (cüdo), Namiq Abdullayev (güləş), Rəfiqə Şabanova (həndbol) və Lyudmila Şubina (həndbol) arenaya gətiriblər.

Daha sonra ən həyəcanlı an gəlib yetişib və 2004-cü ildə Afina Olimpiyadasının qalibi, yunan-Roma güləşçisi Fərid Mansurov XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəlini "Baku Crystal Hall" un məşəl kasasına gətirib.

Bu zaman ekranda "Məşəlin yolu" filmi nümayiş olunub. Kadrlarda məşəlin paytaxtın bütün idman obyektləri boyunca möhtəşəm səyahəti və statistika təqdim edilib. Festivalın məşəli açılış mərasiminin keçirildiyi "Baku Crystal Hall"a çatana qədər Roma şəhərindən çox böyük yol qət edib.

XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəli alovlandırılıb. Məşəl yarışlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Sonda bütün iştirakçı ölkələrin bayraqları səhnədə dalğalanıb.

"Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi başa çatıb.

Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən daha bir mərasimlə festivalın tarixində mühüm yer tutacaq növbəti parlaq səhifə yazıb.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyulun 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 18-də Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri cənab Şarl Mişelə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı iyulun 18-də Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri xanım Ursula Fon der Lyayenə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri iyulun 18-də Belçikanın milli bayramı münasibətilə Kral Əlahəzrət Filipə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***İyulun 19-da Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**İyulun 19-da dövlətimizin başçısı milli bayram – İnqilab Günü münasibətilə Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***İyulun 19-da ölkəmizin rəhbəri Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Abdulaziz bin Turki Al-Subaieni qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 20-də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiçi qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı iyulun 20-də İtaliya Respublikasının Neapol şəhərində keçirilən Tələbələrin XXX Ümumdünya Yay Universiadasında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri iyulun 22-də Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***İyulun 22-də Azərbaycan Prezidenti İlham Əliyev "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncam imzalayıb.***

❖❖❖❖❖

**İyulun 22-də dövlətimizin başçısı Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri iyulun 23-də Kolumbiya Respublikasının, Malayziyanın, İsveçrə Konfederasiyasının, Almaniya Federativ Respublikasının, Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Luis Antonio Dimate Kardenasın, Yubazlan Bin Yusofun, xanım Muriel Peneveyrenin, Volfqanq Maniqin və xanım Qo Minin etimadnamələrini qəbul edib.***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**İyulun 23-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan İsrail Dövlətinin Müdafiə Nazirliyinin Departament direktoru Yair Kulasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan nazir xalqlarımız arasında əlaqələrin dərin qatlara və qədim tarixə malik olduğunu, dünyada multikultural dəyərlərin hökm sürdüyü ölkə kimi tanınan respublikamızda müxtəlif millətlərin, o cümlədən yəhudilərin əsrlər boyu tolerant mühitdə, dostluq və mehribanlıq, təhlükəsizlik şəraitində yaşadıqlarını, ikitərəfli münasibətlərin qurulmasında ulu öndər Heydər Əliyevin önəmli rolunu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və İsrail Dövləti rəhbərliyinin siyasi iradəsi nəticəsində bu əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

Son illər polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının hər iki ölkədə keçirilən müxtəlif təlim və treninqlərə cəlb edildiklərini, öz peşəkarlıqlarını və ixtisaslarını daha da artırdıqlarını xatırladan general-polkovnik Vilayət Eyvazov İsrailin aidiyyatı strukturları ilə işgüzar əlaqələrə malik olduğumuzu nəzərə çatdırıb, o cümlədən Daxili İşlər nazirlikləri səviyyəsində bu əlaqələrin genişləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında daxili və ictimai təhlükəsizlik məsələlərində əməkdaşlıq haqqında Saziş" layihəsinin razılaşdırılması istiqamətində səylərin davam etdirildiyini vurğulayıb.

*Ardı 2-ci səhifədə.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**İyulun 20-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Əlahiddə Çevik Polis Alayında və Nazirliyin digər struktur orqanlarında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**



Aidiyyatı baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri, adıçəkilən alayda baş tutmuş tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumən, 400 iddiaçının arasından daha hazırlıqlı olan 261 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. General-polkovnik V.Eyvazov ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının vətəndaşların intellektual səviyyəsindən, xüsusən yüksək texnologiyalara, innovasiyalara yiyələnmiş,



mükəmməl təhsil almış savadlı, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını məmnunluqla xatırladıb. Belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün hər zaman əhəmiyyətli addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək polisin yüksək adını və mundirin şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Sonra cənab Vilayət Eyvazov Alay əməkdaşlarının xidməti şəraitinin daha da yaxşılaşdırılması istiqamətində son vaxtlar həyata keçirilən tədbirlər, əsaslı yenidənqurma və təmirdən sonra istifadəyə verilmiş yataqxanalar və inzibati bina ilə yaxından tanış olub, ümumən görülmüş işləri müsbət qiymətləndirib, tapşırıq və tövsiyələrini verib.

Daha sonra nazir brifinq zalında ƏÇPA-nın komandir heyəti ilə görüşüb. O, cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində son illər Əlahiddə Çevik Polis Alayının peşəkarlıq, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin xeyli artdığını, qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməyə qadir olan mobil quruma çevrildiyini xüsusilə qeyd edib.

General-polkovnik V.Eyvazov Alay rəhbərliyindən əməkdaşların, xüsusən sonuncu sıra baxışından keçərək yaxın gələcəkdə xidmətə qəbul olunacaq gənc kadrların xidməti, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi işini ən vacib vəzifələrdən biri olaraq həyata keçirilməsini, ictimai təhlükəsizlik əleyhinə olan cinayətlərin və digər hüquq pozuntularının qarşısının alınması üzrə tədbirlərin daha da gücləndirilməsini, əməkdaşların qanunla müəyyənləşdirilmiş vəzifə, funksiya və hüquqlarını dərindən bilmələrini, eyni zamanda, vətəndaşlarla ünsiyyətdə etik normalara, qanunçuluğa, insan hüquq və azadlıqlarına ciddi riayət edilməsini tələb edib.

Bu gün xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün ölkə rəhbərliyi tərəfindən bütün lazımi şərait yaradıldığını, şəxsi heyətin xüsusi diqqət və qayğı ilə əhatə olunduğunu nəzərə çatdıran nazir möhtərəm dövlət başçımızın daxili işlər orqanlarına olan böyük etimadına cavab olaraq hər bir əməkdaşın üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin, Vətənə, xalqa və Prezidentə ləyaqətlə xidmət etməsinin vacibliyini vurğulayıb.

Tədbirə yekun vuran Daxili İşlər naziri əmin olduğunu bildirib ki, Əlahiddə Çevik Polis Alayının əməkdaşları ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması üzrə vəzifələri, qarşıya qoyulan bütün tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaqlar.

*20 iyul 2019-cu il.*

**Bakı Şəhər Baş Polis İdarəsi tabeli orqanları ilə birgə iyulun 19-da jurnalistlərin iştirakı ilə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, inzibati hüquqpozmalara qarşı gücləndirilmiş əməliyyat-profilaktik, profilaktik-maarifləndirmə tədbirləri keçirib.**

Paytaxtın bütün rayonlarını əhatə edən gücləndirilmiş tədbirlərə televiziyalar, informasiya agentlikləri, xəbər saytları, çəkiliş reportyor qrupları cəlb olunmaqla hüquq pozuntularının profilaktikası, küçə ticarəti, avara və dilənçiliklə məşğul olma ilə yanaşı, şəhərimizin görkəminə xələl gətirən, antisanitariya, avtomobil yollarında hərəkətin təhlükəsizliyi, xüsusilə, müəyyən olunmayan yerlərdə-səkilərdə, piyada keçidlərində avtomobillərin saxlanılması və digər hallarla bağlı fəal iş aparılıb.

# TƏDBİRLƏR DAVAM ETDİRİLİR

Əməliyyat və profilaktiki tədbirlər nəticəsində müxtəlif növ cinayət törətdiklərinə görə axtarışda olan 52 nəfərin yeri müəyyənləşdirilib, küçə ticarəti ilə məşğul olduqlarına görə 259, avara və dilənçiliklə məşğul olduqlarına görə 30 nəfər saxlanılıb, eləcə də xırda xuliqanlıq, xırda talama, antisanitariya və digər hallar aşkar edilib. Bununla yanaşı, yol hərəkəti qaydalarını pozan ümumilikdə 1102, o cümlədən kobud qayda pozuntusuna yol verən 717 sürücü barəsində İXM-nin müvafiq maddələri ilə inzibati xəta haqqında protokollar tərtib olunub, avtomaşını sərxoş halda idarə edən sürücülər, avtoxuliqan və yolu müəyyən olunmayan yerdən keçən piyadalar müəyyən ediliblər. Tədbirlər çərçivəsində ictimai təhlükəsizlik idarə və şöbələrinin, post patrul, yol polisi və digər xidmətlərin əməkdaşları ilə birgə KİV nümayəndələri vətəndaşlarla fərdi profilaktik söhbətlər aparıb, şəhər sakinlərinin məsuliyyət hissinin artırılması, hüquqi düşüncənin formalaşması istiqamətində tövsiyələr veriblər.

*Natiq Cavadov*

# DİN-in MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*Əvvəli 1-ci səhifədə.*

İsraildə bir neçə dəfə olduğunu, sonuncu dəfə üç il öncə Təl-Əviv şəhərində təşkil olunmuş beynəlxalq konfrans və sərgidə iştirakını məmnunluqla xatırladan nazir V.Eyvazov səfər çərçivəsində bir çox rəsmilər və müxtəlif qurumların nümayəndələri ilə keçirilən görüşlərin, müzakirə olunan məsələlərin, aparılmış fikir mübadiləsinin onda böyük maraq və xoş təəssürat doğurduğundan söz açıb. Cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təminində İsrailin hüquq-mühafizə orqanlarının təcrübəsinin öyrənilməsinin çox faydalı olduğu, yəhudi dövlətində uzun müddətdir fəaliyyət göstərən ən müasir texnologiyaların, o cümlədən “Təhlükəsiz şəhər” sisteminin respublikamızda da uğurlu tətbiqi qeyd olunub.



Daha sonra DİN-in əsas hüquq və vəzifələri, mövcud kriminogen durum, müstəqilliyin ilk illərində qarşılaşdığımız problemlər, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın işğalı, ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində qazanılan uğurlar barədə qonaqlara məlumat verilib. Nazir qeyd edib ki, nəinki MDB məkanında, Şərqi Avropada da ən sabit, təhlükəsiz dövlətlərdən biri kimi tanınan Azərbaycanda ictimai-siyasi stabillikdən, əlverişli kriminogen durumdan respublikamızın vətəndaşları ilə bərabər, ölkəmizə gələn əcnəbilər, burada yaşayaraq çalışan iş adamları, turistlər də yararlanırlar.

Problemlərə toxunarkən Daxili İşlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotik vasitələrin qanunsuz dövriyyəsinin narahatlıq doğurduğunu, bu növ cinayətlərə qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü nəzərə çatdırıb.

Ölkəmizə ilk dəfə gəldiyini, səmimi qəbula və ətraflı məlumata görə təşəkkürünü bildirən Yair Kulas Bakının gözəlliyinin və müasirliyinin onda böyük təəssürat oyatmasından, hər iki ölkənin müvafiq qurumları arasında işgüzar əlaqələrin inkişafından, Azərbaycanda yaradılmış tolerantlıq mühitindən razılığını ifadə edib.

Qonaq həmçinin ölkəmizdə ictimai asayişin, sabitliyin yüksək səviyyədə qorunmasının əyani təzahürü kimi son zamanlar İsrail vətəndaşlarının da ölkəmizə ziyarətlərinin artmasının ikitərəfli əlaqələrin inkişafının digər mühüm bir aspekti kimi dəyərləndirib, Azərbaycan vətəndaşları ilə bərabər əcnəbilərin də təhlükəsizliyinin təmini istiqamətində respublikamızın daxili işlər orqanları əməkdaşlarının böyük əmək sərf etdiklərini diqqətə çatdırıb, bu səfərin əməkdaşlığın dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Qəbulda İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stav iştirak edib.

*23 iyul 2019-cu il.*

# XALQIN DƏSTƏYİ SABİTLİYİN DƏ, UĞURLARIN DA TƏMİNATÇISIDIR

**Son 15 ildə iqtisadi baxımdan Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşır, sabitlik etibarlı qorunur. Deməli, biz düzgün yoldayıq və bunun alternativi yoxdur.**

**Əvvəli ötən saylarımızda.**

Dövlətimizin başçısı xüsusilə də ilin əvvəlindən sosial-iqtisadi sahədə görülən işlərdən danışarkən vurğulayır ki, islahatlarımız davam edir, islahatlar yaxşı nəticələr verir. Strateji Yol xəritələrinin icrası 52 faiz təşkil edir. Bu önəmli proqram 2020-ci ilin sonuna qədər icra ediləcək və beləliklə, bütün sahələrdə irəliləyişə nail olacağıq. Büdcə gəlirləri artır, makroiqtisadi vəziyyət sabitdir, islahatlar öz nəticəsini verir, biznes mühiti yaxşılaşır. Bütün sahələrdə islahatların uğurlu nəticələrini görürük.

İcbari tibbi sığorta ilə bağlı görülən işlər gözəl nəticə verir. İki ildir ki, bu proqram icra edilir və pilot layihələr insanları razı salır, vətəndaşlar razıdır. Bu, ciddi addımlardır və göstərir ki, biz hər bir sahədə yeni addımlar atmalıyıq, dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməliyik, tətbiq etməliyik və daha da uğurlu inkişaf modeli ortaya qoymalıyıq.




Hökumət hazırda iqtisadiyyatımızın yeni inkişaf strategiyası üzərində işləyir. Bu prosesə qabaqcıl beynəlxalq mütəxəssislər, alimlər cəlb ediləcək ki, uğurlu olsun gözəl nəticələrə gətirib çıxarsın. Bu günə qədər görülmüş işlər bunun üçün gözəl zəmin yaradıb. Əsas infrastruktur layihələri icra olunub. Növbəti beşillik proqram - Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bütün layihələri icra ediləcək. Bu, möhkəm bir zəmindir.

Cənab Prezident hökumətin son iclasında qeyd edib ki, aparıcı beynəlxalq maliyyə qurumları bu siyasətimizi dəstəkləyir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumlarının rəhbərləri ilə keçirilən çoxsaylı görüşlər də göstərir ki, islahatlara bu qurumlar tərəfindən çox böyük dəstək var. Onlar da öz tərəfindən dəstəyini bundan sonra da göstərmək, bu işləri bizimlə birlikdə görmək istəyirlər.

Azərbaycan bu gün xarici sərmayələrin qoyuluşu üçün öz imkanlarını təqdim edir və bu, hər bir ölkə üçün çox önəmli məsələdir. Qeyri-neft sektoruna investorlar tərəfindən böyük maraq var. İnvestisiyaların cəlb edilməsi hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtlərdən biridir. Azərbaycanda dövlət investisiyaları qoyulur və qoyulmalıdır. Ancaq çalışmalıyıq ki, özəl sektor daha da böyük həvəslə investisiyalar qoysun.

İqtisadi sahədə əldə edilən yüksək nəticələr bu gün xalqımızın rifahına yönəldilib. Son 15 il ərzində 2 milyon iş yeri yaradılıb. Əhali isə bu müddət ərzində 1,7 milyon artıb. İş yerlərinin yaradılması üçün sərmayə qoyuluşu əsas vəzifədir. Dövlət tərəfindən yaradılan iş yerləri sosial xarakter alır. Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir.

Son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur.

Dövlət rəhbərimiz bu məqama xüsusi diqqət ayırıb:

***-Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar. Müvafiq icra orqanlarının rəhbərlərinə və məsul şəxslərə göstəriş verildi ki, onlar daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar... Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaq…***

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ ƏMƏLİYYAT VƏ STATİSTİK İNFORMASİYA İDARƏSİNİN TABELİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Bakı şəhərinin 6 saylı, o cümlədən respublikanın Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi "ASAN xidmət" mərkəzlərinin hər birində 4, ümumilikdə 24 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, xüsusi orta və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 (qadınlar), 170 (kişilər) santimetrdən yuxarı olan özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Bakı, Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi şəhərlərində və ətraf rayonlarında daimi qeydiyyatda olan vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2019-cu ilin iyul ayının 18-dən avqust ayının 18-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri Nizami rayonu Məhsəti küçəsi 160-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə bilavasitə tabe olan Arxiv-uçot şöbəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-Şəxsiyyət vəsiqəsi***
***-Təhsil haqqında sənədin əsli***
***-Hərbi bilet (kişilər üçün)***
***-əmək kitabçası (olanlar üçün)***

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 570-70-80;**

*Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi*

# BU XİDMƏTDİR, HƏM DƏ MƏSUL VƏ GƏRƏKLİ

**İctimai şuraların yaradılması daxili işlər orqanlarının fəaliyyətinə mühüm dəstəkdir desək, yanılmarıq. Aparılan təhlillərin, keçirilən sorğuların nəticəsində görürük ki, İctimai şuraların fəaliyyəti əhali tərəfindən rəğbətlə qarşılanır.**

Ümumilikdə bu institutun daha da təkmilləşməsi daxili işlər orqanları ilə vətəndaşlar arasında əlaqələrin, inamın və etimadın möhkəmlənməsinə, polisin fəaliyyətində şəffaflığın təmin olunmasına, həmçinin inzibati sahənin problemlərinin aradan qaldırılmasına müsbət təsir göstərir. Şura üzvləri gündəlik həyata keçirilən ümumi və fərdi profilaktika



İctimai şura üzvləri ilə birgə Bakı ŞBPİ, Nərimanov, Sabunçu, Nizami, Səbail, Suraxanı Polis İdarələrində, respublikanın Gəncə, Cəlilabad, Sumqayıt, Lənkəran, Beyləqan, Qazax, Quba, Ağdaş, Ağsu, Oğuz şəhər, rayonlarında dövlət orqanlarının və dörd mindən çox ictimaiyyət nümayəndəsinin iştirakı ilə dini radikalizmə və ekstremizmə qarşı mübarizə sahəsində də zonalar üzrə konfranslar keçirilmişdir.

ğat işlərinin aparılmasına, vətəndaşların qəbulunun təşkilinə, kütləvi informasiya vasitələri ilə əlaqələrin yaradılmasına, polisin fəaliyyəti barədə əhalinin rəyinin öyrənilməsinə, polisin fəaliyyətinin təkmilləşdirilməsi və əhali ilə əlaqələrinin möhkəmləndirilməsi barədə təkliflərin verilməsinə, yaşayış məntəqəsi daxilində idman yarışlarının təşkilinə, inzibati sahədə yaşayan əhali üçün «açıq qapı» günlərinin keçirilməsinədək vəzifələrin İctimai şura üzvləri tərəfindən həyata keçirilməsi polisin fəaliyyətinə verilən ən böyük dəstəkdir. Şübhəsiz, bu addımlar imkan verəcək ki, vətəndaşların könüllülük əsasında ictimai asayişin təmin olunmasına cəlb edilməsi işi daha səmərəli qurulsun, tədbirlərində iştirak edir, əvvəllər məhkum olunmuşlar, münaqişəli ailələrə və digər risk qruplarına aid şəxslər ətrafında iş aparırlar.

Baş İctimai Təhlükəsizlik İdarəsinin hazırladığı hesabatda qeyd edilir ki, ***2018-ci il ərzində şəhər, rayon polis orqanları tərəfindən İctimai şura üzvləri ilə birgə təlim-tərbiyə ocaqlarında 85 minə yaxın məktəblinin cəlb edildiyi 2000 görüş, müzakirə və yığıncaqlar keçirilmiş, "İnternet təhlükəsizliyi", "Tütün məmulatlarının zərərli təsiri", "Yol hərəkəti qaydaları", "Avara və dilənçiliyin qarşısının alınmasında gənclərin fəaliyyətinin artırılması" və s. mövzularda çıxış və məruzələr edilmiş, uşaqları maraqlandıran suallar cavablandırılmışdır.***

Regionlarda İctimai şuraların, onun üzvlərinin fəaliyyəti barədə şimal bölgəsində ezamiyyətdə olarkən etdiyim müşahidələri və gəldiyim qənaəti **Siyəzən RPŞ-nin İctimai şura üzvü Alim Məmmədovla** tanışlıqdan sonra yazıya almağa qərar verdim.

On ildən çoxdur ki, şura üzvüdür. Polisin bütün tədbirlərində fəal iştirak edir. Deyir ki, həvalə olunan vəzifənin təməlində dövlətə və dövlətçiliyə xidmət durur. Cinayətkarlığın qarşısının alınması sahəsində mövcud olan problemlərlə əlaqədar ərazi polis orqanının rəhbərliyi qarşısında məsələ qaldırılmasından tutmuş, əhali arasında hüquqi maarifləndirmə və təbli-

polis-cəmiyyət əlaqələri, polisə inam və etibarın yaradılması işi daha uğurla həyata keçirilsin.

**RPŞ-nin rəisi, polis polkovniki Valik Vəlimətov** da İctimai şura üzvlərinin, xüsusilə də Alim Məmmədovun fəaliyyətini yüksək qiymətləndirdi.

Yeri gəlmişkən, Alim Məmmədovdan işə bu cür can yandırdığının səbəbini soruşduqda aldığımız cavab belə oldu: "Mən illər öncə çatmadığım arzumu bu gün İctimai şura üzvü kimi gerçəkləşdirmişəm. Polis olmaq istəyirdim, ancaq qismət deyilmiş. İndi polisin haqq işinə dəstək verirəm, deməli Vətənimə, xalqıma xidmət edirəm".

***H.Təmirov, polis mayoru***

# POLİS KÖMƏYİMİZƏ ÇATDI:
## BUNU ƏCNƏBİLƏR DƏ DEYİRLƏR



**Redaksiyamıza Ukraynadan bir zəng daxil oldu. Qadın səsi idi. Hətta danışanda hıçqıra-hıçqıra ağlayan xanım həm özünün, əsasən də atasının başına gələnlərdən danışdı. Bütün eşitdiklərim kiçik kinolent kimi gözümün önündən keçdi.**

"Adım Oksana Kalmıkovadı. Heç vaxt ölkənizdə olmamışdım, amma hər zaman gəlib görmək arzusundaydım. Nəhayət, bu arzum gerçəkləşdi. Gəlməyimin səbəbi atam Viktor Kravçenko oldu. Çernobıl hadisələrinin iştirakçısı olan V.Petroviç düz 43 ildir ki, ağır tonnajlı yük maşınlarının sürücüsü işləyərək başqa-başqa ölkələrə səfərə getməklə, müxtəlif çeşidli mallar daşıyır. Növbəti səfəri də cari ilin aprel ayında Azərbaycana olur. Aprelin 19-da malları ünvana çatdırandan sonra yolda atamın halı pisləşir. Sahil qəsəbəsinin yaxınlığında maşını saxlıyır. Az sonra birtəhər özünə gəlib atam maşını işə salmaq istəsə də alınmır. Maşının sazlığını yoxlayan zaman sürücü kabinası aşaraq yerə düşür və atam yenidən onunla bərabər yıxılır. İmdadına yetişən YPX inspektorları atama ilk yardım göstərərək hadisə yerinə təcili tibbi yardım briqadasını çağırırlar. Həkim zəruri prosedurları həyata keçirdikdən sonra məsləhət görür ki, o, xəstəxanaya yerləşdirilməlidir. YPX əməkdaşları: "Narahat olmayın, maşının təhlükəsizliyi yüksək səviyyədə təmin olunacaq",-desələr də, bununla razılaşmayan atam, maşının yanında qalmağı üstün tutur.

Təkrar halı pisləşəndə isə Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Reanimasiya şöbəsinə çatdırılır. Atama böyük ölçülü işemik insult diaqnozu qoyulur.

YPX əməkdaşları yolda qalmış maşını evakuator vasitəsi ilə duracağa yerləşdirirlər. İçində olan külli miqdarda pul, möhürlər, ştamplar, lisenziya, noutbuk, sənədlər və pasportlar təhvil-təslim aktında qeyd edilərək xəstəxanaya verilir. YPX inspektorlarından başqa bir polis əməkdaşı da atama baş çəkir.

Bizə xəbər verilənə qədər həmin polislər həkimlərdən atamın səhhəti ilə maraqlanırlar, xidmətdən sonra yanına gəlib-gedirlər.

İki gündən sonra mən həyat yoldaşım Serqeylə Xarkov şəhərindən birbaşa reyslə Bakıya gəldik. Polis əməkdaşlarının nömrəsini bizə xəstəxanada verdilər. Əlaqə saxlayaraq Qaradağ RPİ 38-ci PB-nə gəldik. Maşınla bağlı suallar bizi narahat edirdi. Əgər həyat yoldaşımla həmin TIR-ı aprelin 29-na qədər sərhəddən çıxar masaydıq bizi böyük cərimə gözləyirdi.

Maşının duracaqdan çıxarılmasında, evakuatora, Miqrasiya Xidmətinə ödənişində, Ukrayna səfirliyindən arayış götürülməsində və digər məsələlərdə təhqiqatçı bizə çox kömək etdi...




Bir sözlə, polislərin çevikliyi, vicdanlı yanaşması, insanlıqları və ən əsası, sanki doğmasına olan münasibətini heç zaman unutmayacağıq. Unutmamağımın bir səbəbi də o olacaq ki, bu sərgüzəştlər vaxtı öz doğum günümü də reanimasiyada, atamın yanında keçirdim..."

**YPXA-nın 6-cı taqımının inspektoru, polis serjantı Adgözəl Alıyev** 1991-ci ildə Şamaxıda doğulub. 2012-ci ildən DİO-dadır. **Polis serjantı Hafiz Məhərrəmov** 1991-ci ildə Bakı şəhərində doğulub. 2015-ci ildən xidmətə başlayıb.

Bakının ən gur məkanı-Nizami küçəsi. 2012-ci ilin aprel ayı. Bu küçə gündəlik həyatını yaşayır. Amma bu sabitliyi istəməyən, Azərbaycanda olan bu inkişafı gözü götürməyənlər yenə də çalışdılar ki, qarışıqlıq və çaxnaşma yaratsınlar. Qarşıdurma vaxtı yerə düşən bayrağımızı əyilib yerdən götürəndə başından ağır zərbə aldı, huşunu itirdi. Ayılanda özünü DİN-in A.Heydərov adına Respublika Hospitalında gördü və gözləri ilə bayrağı axtardı. Bayrağın səliqəli formada dolabın üzərində qoyulduğunu görüb rahat nəfəs aldı.

**Qaradağ RPİ 38-ci PB-nin təhqiqatçısı, polis kapitanı Pərviz Məmmədov** 1981-ci ilin noyabrında Mingəçevir şəhərində doğulub. 2005-ci ildən DİO-da xidmət edir. Dəfələrlə kikboksinq turnirlərinin qalibi olub.

***Ruslan Vəliyev, polis leytenantı***

# SÖZÜMÜZ VAR...

**Milli Mətbuat Günündə "sözə azadlıq", "sözümüzü demək istəyirik",- deyən beş-on nəfərin Daxili İşlər Nazirliyinin və Mətbuat Şurasının qarşısında aksiya keçirmək cəhdlərinə, düzü, çox təəccübləndim. Əsas şüarlarından biri də bu idi ki, guya, sözlərini deməyə polis imkan vermir. "Azad sözü boğduğuna görə" hətta hakimiyyəti də suçladılar. Məkanın Daxili İşlər Nazirliyinin qarşısının seçilməsi, polisin adının tez-tez hallandırılması əvvəlcədən cızılmış planın bir hissəsi idi.**

Məlumi-məsələ o idi ki, diqqət çəkmək istəyirdilər. Feysbukda və digər sosial şəbəkələrdə düzənlədikləri "tədbiri" canlı yayım da edirdilər ki, sifariş verənlərinə "sponsorluq" edənlər onların "söz azadlığı" üçün çıxardıqları hoqqanı görüb dəstəkləsinlər, daha doğrusu, "səxavət kisə"lərinin ağzını açsınlar.

Müşahidə etmişik: qanunsuz aksiya keçirmək, sabitliyi pozmağa yönəlik hərəkətlərinə haqq qazandırmaq istəyənlərin polisin haqlı tələblərini müzakirə mövzusuna çıxarmaları açıqdan-açığa qərəzdən başqa bir şey deyil.

Polis güc strukturudur. O, ölkəmizdə sabitliyin, asayişin təminatçısıdır, ən əsası, xalqın xidmətçisidir. Sabitliyimizə, əmin-amanlığa uzanan əlləri kəsmək, xain əməllərin qarşısını almaq, məkrli niyyətləri ifşa etmək, min bir əziyyət və qanımız bahasına qazandığımız, uğrunda canımızdan keçdiyimiz müstəqilliyimizi qoruyub-saxlamaq həm də bizim qutsal görəvimizdir.

Polisin də ilk silahı Sözdür. O söz ki, Haqqa söykənəndə, qərəzsiz deyiləndə, özündə ədalət prinsiplərini ehtiva edəndə onun yeri hər zaman ucada olur. Ən qatı cinayətkarı belə qanuna dəvətdə də səmimiyyət nümayiş etdirən, vətəndaşa təhlükədən daha yaxın olmaqla neçə-neçə ömürləri ölümün cəngindən alan Azərbaycan Polisi haqqında "Mənim polisim məni qoruyur" şüarını "mübaliğəsiz, rəngsiz, boyasız", özü də ürəkdən deyənlərin haqqına girən bu "azad söz ovçuları"na verəcəyimiz adı tapmaqda çətinlik çəkirik.

"Azərbaycanda söz azadlığı yoxdur" deyənlər, onları idarə edənlər, gəzməyə yox, söyməyə qərib ölkə axtaranlar sosial şəbəkələrdə ölkə rəhbərindən tutmuş, bir çox dövlət məmurlarına yazdıqları təhqirlərə, qarayaxmalara heç bir vəchlə haqq qazandıra bilməzlər. Çünki haqsızdırlar və öz ayıblarını görməzlikdən gəlirlər. Görmək isə Allahın insana verdiyi bir lütfdür. Qəlbinin gözü İlahi tərəfindən möhürlənəni, özü yatıb özgələrin yuxusunu görənləri isə qəflətdən İsrafilin suru belə oyada bilməz...

Sözümüzü və özümüzü özgə sözünü deyənlərdən qoruyaq. Bizə gəlincə, deməyə sözümüz də var, üzümüz də.

***T.Hafiz***

# MARAQ DÜNYASI

1977-ci ildə NASA kosmosa Voyager raketini buraxarkən ona qızıl val əlavə edib. Əgər raket yadplanetlilərin əlinə keçsəydi bu val vasitəsilə onlar dünya haqqında dolğun məlumat əldə edəcəkdilər. Valda həmçinin şəkillər və 27 musiqi parçası olub. Həmin melodiyalardan biri də Azərbaycan musiqisi idi.



*****

Osmanlı dövründə qadınlara verilən ən dəyərli hədiyyə güzgü imiş. Bunun anlamı "Sənə səndən dəyərli bir hədiyyə tapa bilmədim" demək idi.

*****

1863-cü ildə Jül Vern "XX əsrin Parisi" adlı əsər yazıb. O bu əsərdə o vaxt mövcud olmayan avtomobilləri, faksı və elektrik stulunu ətraflı şəkildə təsvir edib. Buna görə də naşir onu ağıldan kəm adlandıraraq əlyazmasını geri qaytarıb.

*****

Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.

13 rəqəminin uğursuz olduğu iddia edildiyi üçün ABŞ-da bir çox oteldə 13-cü mərtəbədə otaq olmur.





*****

BMT-nin verdiyi məlumata görə dünyada hər gün orta hesabla 250 min körpə doğulur.

*****

Nyu-Yorkda ev satarkən evdə ruhların olub-olmadığını müştəriyə söyləmək qanuni məcburiyyətdir.

***Ruhiyyə Əliyeva***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNİN TABELİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Bakı şəhərinin 6 saylı (30), o cümlədən respublikanın Tovuz (22), Balakən (18), Ağcabədi (18), Kürdəmir (18) və Şamaxı (18) "ASAN xidmət" mərkəzlərində ümumilikdə 124 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, xüsusi orta və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Bakı şəhərində, Tovuz, Balakən, Ağcabədi, Kürdəmir, Şamaxı və ətraf rayonlarında daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2019-cu il iyul ayının 25-dən avqust ayının 25-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-Şəxsiyyət vəsiqəsi***
***-Təhsil haqqında sənədin əsli***
***-əmək kitabçası (olanlar üçün)***

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 590-64-41; (012) 590-64-31 (312) daxili**

***Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi***

# SAKİT: İMTAHAN GEDİR




**Polis Akademiyasında əyani təhsil üzrə 2018-2019-cu tədris ilinin yaz imtahan sessiyası davam edir.**

Semestr müddətində aldıqları nəzəri biliklərin mənimsəmə səviyyəsini, sərbəst işləmə bacarığını, təcrübi məsələlərin həllində həmin biliklərdən səmərəli istifadə etmək qabiliyyətini müəyyənləşdirmək və qiymətləndirmək, eyni zamanda imtahanlar zamanı baş verə biləcək neqativ halları aradan qaldırmaq üçün apelyasiya və fənn komissiyaları yaradılmış, imtahan cədvəli təsdiq edilmişdir.

Müsbət nailiyyət əldə olunması məqsədilə professor-müəllim heyəti tərəfindən məsləhət saatları keçirilmiş, kursantların kitabxana fondundan səmərəli istifadəsinə nəzarət gücləndirilmişdir. İmtahanların tam şəffaf və obyektiv aparılması, insan faktorunun və kənar müdaxilələrin qarşısının alınması məqsədilə, bəzi ixtisas fənləri üzrə təhsil alanların biliyi yazılı və şifahi formada, eləcə də kompüter vasitəsilə test üsulu ilə yoxlanılır.

Yeri gəlmişkən, aparılan təhlillər nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə "əla" və "yaxşı" qiymətlərin sayının artdığı müşahidə olunur.

***Teymur Əlizadə, polis kapitanı***







**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |




Britaniyada hərraca çıxarılan qədim avtomobil qeydiyyat nömrəsi 250 min funt sterlinqə (530 min manat) satılıb. "AJ1" qeydiyyat nömrəsi 1907-ci ildən Şimali Yorkşir polisinə məxsusdur. Onun ilk sahibi baş konstebl Robert Boyer olub. Polis idarəsi əldə olunan vəsaiti yerləşdiyi binanın yanında xatirə parkının salınmasına yönəldəcək.

*****

Misir hakimiyyəti firon Tutanhamonun daşdan hazırlanmış qədim büstünün satıldıqdan sonra yerini müəyyənləşdirmək üçün İnterpola müraciət edib. Ehtimal olunur ki, həmin əmanətlərdə satışın qanuniliyini təsdiq edən zəruri sənədlər yoxdur.

Misir hakimiyyəti vaxtilə xarici arxeoloqların tapdığı və ölkədən qanunsuz çıxarılan artefaktların qaytarılması tələbini irəli sürür.

Qeyd edək ki, Tutanhamonun büstü iyulun 4-də Londonda keçirilmiş hərracda təqribən altı milyon dollara satılıb.

*****

Avqust ayından etibarən Moskvadan 250 min polis əməkdaşının Türkiyəyə səfər edəcəyi gözlənilir. Məlumata əsasən, Rusiya hökumətinin polislərin Türkiyəyə səyahət qadağasını ləğv etməsindən sonra sözügedən sayda polis əməkdaşının ailələri ilə bu ölkəyə səfəri gözlənilir.

*****

Türkiyənin Bursa şəhərində namaz qılmaq bəhanəsi ilə məscidə girərək oğurluq edən şəxs kameralara yaxalanıb. Gənc oğlan guya namaz qılırmış kimi rol oynayaraq ətrafı nəzərdən keçirib, sonra isə divarda asılmış və 100 illik tarixi olan saatı oğurlayaraq hadisə yerindən uzaqlaşıb.

Oğru çox keçmədən polis tərəfindən saxlanılıb.

*****

ABŞ-ın Gömrük və Sərhəd Mühafizə Agentliyi Filadelfiya limanında "JP Morgan" şirkətinə məxsus gəmidən dəyəri 1,3 milyard dollar olan 20 ton qaçaq kokain aşkar edib.

Prokuror Uilyam Mak Sveyn məsələ ilə bağlı bildirib ki, 90 milyon dollar qiyməti, 10 min konteynerlik tutumu olan gəmi müsadirə ediləcək. Çilidən yola düşən gəmi Peru, Panama, Baham adalarından keçərək ABŞ-a yan alacaqmış. Oradan isə Avropaya doğru yola çıxacaqmış.

Liberiya bayrağı altında üzən gəminin Serbiya və Samoa vətəndaşlarından ibarət 8 nəfərlik heyəti həbs edilib. Gəmi kapitanının köməkçisi və heyətin bir üzvü gəmiyə kokain gətirməkdə ittiham olunurlar.

***C.Natiq***

# İyulun 17-dən 23-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 168 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 38 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 156, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 16, borclu şəxs qismində axtarışda olan 79 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 8 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 85 fakt müəyyən edilmişdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Gədəbəy RPŞ-nin rəisi Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi Həzi Aslanov və şəxsi heyəti iş yoldaşları Elburus Rəcəbova əzizi
**ƏLƏDDİN kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəhbərliyi və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti iş yoldaşları Mülayim Xıdırova qardaşı
**FEYRUZUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəhbərliyi və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin şəxsi heyəti şöbə rəisi Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Vüqar Əliyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşkəsən RPŞ-nin rəisi Vəfadar Orucov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.372
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30